*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 oktyabr 2018-ci il № 78 (2294) Qiymətı 25 qəpik


*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# "Böyük Qələbəni qazanacağıq!"



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2018-ci ilin döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda "Ən yaxşı tank bölüyü" adı uğrunda yarış keçirilib. Tank bölmələrinin döyüş hazırlığının yoxlanılması, heyətlərin bilik və bacarıqlarının artırılması, döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə təşkil olunan yarış təlim mərkəzində yerləşən müxtəlif atış sahələrində baş tutub. Yarışa cəlb olunan heyətlər verilən tapşırıqları dəqiq, vaxtında və düzgün icra ediblər. Komandalar sürücülük, atış, fiziki hazırlıq və digər məşğələlər üzrə məqbulları müvəffəqiyyətlə yerinə yetiriblər.*

Həmçinin, heyətlər gecə vaxtı atış sahəsində düşmənin peyda ola biləcək istənilən hədəflərinə qarşı atış aparmaq bacarıqlarını da nümayiş etdiriblər. Yarışın şəffaf və düzgün keçirilməsi, nəticələrin dəqiq hesablanıb qiymətləndirilməsi məqsədilə yuxarı komandanlıq tərəfindən yaradılan komissiya heyəti yarışın nəticələrini yüksək qiymətləndirib.

Keçirilən yarışın yekununda "Ən yaxşı tank bölüyü" adına layiq görülən heyət müəyyənləşib. Komissiya heyətinin yekun nəticələrinə əsasən birinci yerə "Beyləqan" komandası layiq görülüb. Heyət üzvlərini yaxından tanımaq üçün "N" hərbi hissəsinə yollandıq.

Hərbi hissənin zabiti Elvin Həsənovun müşayiəti ilə tank saxlancında olan heyət ilə tanış oluruq. Zabit qələbə nəticəsində hərbi hissənin hər bir üzvünün sevinc hissi keçirdiyini bildirdi. "Hər il baş tutan belə yarışlar artıq ənənəyə çevrilib. Ümumilikdə ordumuzda bu cür yarışların keçirilməsi şəxsi heyətin döyüş hazırlığının və mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsində müsbət rol oynayır.

(Ardı 3-cü səhifədə)



Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Beynəlxalq Müəllimlər Günü qeyd edildi

4-cü səhifədə



"Azərbaycan əsgəri tarixi torpaqlarımızı azad etməyə qadirdir"

6-cı səhifədə



Əsgər dostluğu uzunömürlüdür

7-ci səhifədə



Əsgərlərimizin məişət şəraiti yüksək səviyyədədir

8-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Naxçıvanda yeni hərbi hissə istifadəyə verilib





Muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasını gücləndirib, döyüş qabiliyyətini artırıb. Hərbi hissələrdə aparılan quruculuq işləri və yaradılan müasir şərait isə xidmətin nümunəvi təşkilinə imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 8-də Əlahiddə Ümumqoşun Ordunun yeni hərbi hissəsi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Sonra Ali Məclisin sədri hərbi hissədə yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, hərbi hissədə ikimərtəbəli texniki nəzarət məntəqəsi və qarovul evi, 160 yerlik 80 texnika saxlancı, texniki qulluq və təmir, yanacaqdoldurma, eləcə də gündəlik texniki xidmət məntəqələri yaradılıb. Burada hərbi texnika və avtomobillərin saxlanması, təlimata uyğun istifadə və istismarı üçün lazımi şərait vardır. Texniki nəzarət məntəqəsində təlimat sinfi, növbətçi, həkim və digər xidməti otaqlar istifadəyə verilib. Qarovul evində də xidmətin təşkili üçün hərtərəfli şərait yaradılıb.

Təyinatına uyğun olaraq zəruri inventar və avadanlıqlarla təchiz edilmiş texniki qulluq və təmir məntəqəsində artilleriya silahlarının, rabitə vasitələrinin, akkumulyator batareyalarının təmiri və doldurulması, o cümlədən texnikaların təmiri emalatxanaları, ehtiyat hissələr anbarı və çay evi istifadəyə verilib.

Ali Məclisin sədri hərbi hissədə nümunəvi xidmət şəraitinin yaradıldığını bildirib, şəxsi heyətin peşəkarlığının və döyüş hazırlığının daim artırılması, texnikaların saxlanma şəraitinə nəzarət olunması və təhlükəsizlik qaydalarına əməl edilməsi barədə tapşırıqlar verib.

# Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb

*NATO-nun "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərmək məqsədilə Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

Hazırda Azərbaycan Ordusunun 120 hərbi qulluqçusu, 2 hərbi həkimi və 6 qərargah zabiti olmaqla Əfqanıstandakı missiyada iştirak edir.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hava hücumundan müdafiə bölmələrinin təlim-məşqləri keçirilib

Ümumqoşun birlik və birləşmələri hava hücumundan müdafiə bölmələrinin planlı təlim-məşqləri keçirilib.

Praktiki döyüş atışları ilə icra olunan məşqlərdə şəxsi heyət şərti düşmənin hava hədəflərini aşkar edərək onları daşınan zenit-raket komplekslərindən məhv ediblər.

## Paraşüt hazırlığı üzrə məşqlər keçirilib

Azərbaycan Ordusunun bölmələri ilə paraşüt hazırlığı üzrə məşqlər keçirilib. Məşqlərdə şəxsi heyət tərəfindən müxtəlif tapşırıqlar yerinə yetirilib, hərbi qulluqçuların döyüş vərdişləri təkmilləşdirilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**9 oktyabr 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

İşğal altında olan Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 10-da Goranboy rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, onun səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçirəcəklər.

# Əlahiddə Ümumqoşun Ordunun əsgərlərinə isti qış geyimləri verilib

*Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə xidmət edən əsgərləri isti qış geyimləri ilə təmin olunub.*

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov çıxış edərək, avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsinin tapşırıldığını bildirib. Nazir vurğulayıb ki, qarşıya qoyulan tapşırığın icrası istiqamətində məhdud fiziki imkanlı 20 qadın tərəfindən toxunmuş 1335 cüt yun corab və 114 ədəd yun şərf bu gün əsgərlərimizə hədiyyə edilir. Corablardan 1000 cütü Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə yerləşən bölmələrinə, 335 cütü isə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına təhvil verilir.

Qeyd olunub ki, bu kimi tədbirlər məhdud fiziki imkanlı şəxslərin məşğulluğunu təmin etməklə bərabər, onların maddi təminatlarının yaxşılaşmasına da müsbət təsir göstərir.

Əlahiddə Ümumqoşun Ordunun zabiti general-mayor Niyaməddin Tağıyev tədbirdə çıxış edərək bildirib ki, Naxçıvanda yerləşən ordu, birləşmə və hissələr hərtərəfli qayğı ilə əhatə olunub. Dövlətimiz tərəfindən göstərilən bu diqqət hərbçilərin məsuliyyətini daha da artıraraq vətənpərvərlik hisslərinin güclənməsinə səbəb olub. Dövlət qayğısından və xalq-ordu birliyindən ruhlanan hərbi qulluqçularımız yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdirlər. Bu gün əsgərlərə isti qış geyimlərinin təqdim edilməsi növbəti qayğının ifadəsi, xalq-ordu birliyinin təcəssümüdür.

Tədbirdə əsgər Yunis Abbaszadə yoldaşları adından göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

Çıxışlardan sonra yun corab və şərflər hərbi hissə və zastavalara təhvil verilib.

# "Böyük Qələbəni qazanacağıq!"

(Əvvəli 1-ci səhifədə)



Yarışda iştirak edən heyətlər yüksək döyüş qabiliyyəti və bacarıq nümayiş etdirdi. Heyətimiz cüzi fərqlə digər komandaları qabaqladı. Bu yarışların bütün mərhələlərində verilən tapşırıqları dəqiq və vaxtında yerinə yetirməklə bir daha nümayiş etdirdik ki, Ali Baş Komandanın istənilən döyüş tapşırığını yerinə yetirməyə hər an hazırıq", - mayor E.Həsənov dedi.

Qalib heyətə yaxınlaşırıq. Şəxsi heyət tankın ətrafında düzülərək döyüş hazırlığı planına uyğun olaraq məşğələ keçir. Məşğələdən sonra onlardan bir neçəsinin yarış haqqında fikirlərini öyrənirik.

İlk olaraq leytenant Tofiq Həmidovla həmsöhbət oluruq. Əslən Abşeron rayonundan olan zabit, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Bu peşəni öz istəyi ilə seçdiyini bildirən Tofiq dedi ki, əmisi Rəis Həmidov ehtiyatda olan zabitdir və Qarabağ müharibəsinin iştirakçısıdır. "Zabit olmaq istəyimin formalaşmasında əmimin Qarabağ döyüşlərindən, silahdaşlarından danışması təsirsiz ötüşməyib. Bu şərəfli peşəyə yiyələnmək istəyimi bildirəndə əmim də, atam da çox sevindi və qürurlandı. Hər birimiz yarışın qalibi olduğumuz üçün sevincliyik. Yarışda yüksək nəticə göstərməyimiz düşmən üzərində qələbə qazanacağımızdan xəbər verir. Hər birimiz yaxşı bilirik ki, bu gün dərslərdə, təlimlərdə nə qədər əziyyət çəksək, sabah döyüş meydanında qələbə qazanmaq o qədər asan olar. Ona görə də üzərimizə düşən vəzifələrin öhdəsindən məsuliyyətlə gəlir, döyüş vərdişlərinin daim artırılması istiqamətində



işlər aparırıq. Günün nizam qaydasına uyğun olaraq təşkil olunan nəzəri və praktiki dərslərdə şəxsi heyətin öyrədilənləri mənimsəməsi üçün bütün biliklərimizi səfərbər edirik. Yarış zamanı dərslərdə öyrəndiyimiz bilikləri sınaqdan keçirdik. Heyətimizlə qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən bacarıqla gələrək yarışın qalibi olduq", - leytenant T.Həmidov dedi.

Söhbətinə davam edən gənc zabit yarışın mərhələlərindən söz açaraq bildirdi ki, beş mərhələdə keçirilən yarışın birinci mərhələsində sıra baxışı, bölmənin ümumi hazırlığı və zahiri görkəminə baxış keçirildi. "İkinci mərhələdə isə komanda üzvlərinin fiziki hazırlığı yoxlanıldı. Eyni zamanda, şəxsi heyətdən idman normativləri qəbul olundu. Sonrakı mərhələdə yarış iştirakçılarının gecə və gündüz zamanı atıcılıq və sürücülük qabiliyyətləri yoxlanıldı. Sonuncu mərhələ isə taktiki hazırlıqdan oldu. Bu mərhələdə tam kolondan döyüş kalonuna açılış, düşmənin aşkar olduğu istiqamətə və geriyə hərəkət üzrə bacarıqlar yoxlanıldı."

Ordu sıralarına Kürdəmir rayonundan qatılan baş gizir Taleh Quliyev yarış haqqında təəssüratlarını bizimlə bölüşdü:

- İlk dəfə Ənvər Əblucun ekranlaşdırdığı "Ağ atlı oğlan" filmini seyr edəndə yeniyetməydim. Qarabağımızın azadlığı uğrunda erməni qəsbkarlarına qarşı gedən müharibədə yaşlılarla bərabər məktəbli oğlanın da göstərdiyi qəhrəmanlıqdan təsirləndim. Muradın qəhrəmanlığı hər birimizi fədakarlığa, vətənpərvərliyə səsləyirdi. Həmin vaxtdan hərbçi olmağı qərara aldım. Artıq 20 ildir Vətənim Azərbaycana xidmət edirəm. Xidmətə başladığım gündən Murad kimi, "ağ atımda" (tankımda) düşmən qüvvələrini işğalda olan torpaqlarımızdan qovub-çıxarmaq istəyirəm. Bunun üçün əlimizdən gələni əsirgəmirik. Qazandığımız uğurlar da bunun bariz nümunəsidir. "Ən yaxşı tank bölüyü" adı uğrunda keçirilən yarışı sadəcə sınaq kimi qəbul etmirdik. Həyəcanlı olmağımız da təbiidir, çünki rəqiblərimiz çox güclüydü. Lakin həmişə olduğu kimi, çətinliyin üstünə getdik və qalib olduq. Əsas məqsədimiz isə Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə ermənilərin törətdikləri vəhşiliklərə görə cəzalandırmaqdır.

Salyan rayonundan olan gizir Elməddin Zaidov hərbçi ailəsində dünyaya göz açıb. "Atam həmişə Qarabağımızdan danışanda gözləri yaşarır. O həmişə deyir ki, Vətənin dar günündə hər birimiz onu müdafiə etməliyik. Atama hərbçi olmaq istədiyimi bildirəndə mənimlə qürur duyduğunu dedi. Çünki onun yolunu davam etdirəcəkdim. Xidmətə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi başlasam da, sonra gizir hazırlığı kursunu bitirdim. Əmim Nuxbala, qardaşım Xəyyam da düşmənlə təmas xəttində xidmət edirlər. Hər zaman yuxarı komandanlığın etimadını doğrultmağa çalışırıq. Qatıldığımız yarış da asan keçmədi. Məqsədimiz birinci olmaq idi. Bunun üçün komandirlərimizin öyrətdiklərini düzgün tətbiq edərək qalib olduq. Belə yarışların döyüş şəraitinə uyğunlaşmağımız üçün əhəmiyyəti böyükdür. Arzu edirəm ki, yarışda keçirdiyimiz hissləri tezliklə Böyük Qələbənin sevinci əvəz etsin".

"Dayım Qarabağ müharibəsinin iştirakçısı olub. O, Tərtər istiqamətində gedən ağır döyüşlərdə itkin düşüb. Xidmətə başladığım gündən dayımın qismində bütün şəhidlərimizin qisasını almaq istəyirəm. Ürəyi Vətənlə döyünən hər kəsin yalnız bir amalı var - işğalda olan torpaqlarımızı azad etmək. "Ən yaxşı tank bölüyü" adı uğrunda keçirilən yarışın qalibi olmağımızla fəxr edirəm. Yarışda iştirak edən hər komanda çalışırdı ki, qalib olsun. Bunun üçün gərgin mübarizə gedirdi. Verilən tapşırıqları dəqiq və vaxtında yerinə yetirərək birinci olduq. Qarşımızda duran əsas məqsəd növbəti yarışlara daha hazırlıqlı olmaqdır, çünki birinciliyi qoruyub saxlamaq onu qazanmaqdan çətindir", - deyə Masallı rayonundan hərbi xidmətə çağırılan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Pərvin Həsənov bildirdi.

Növbəti həmsöhbətimiz yarış zamanı hədəfləri dəqiq tuşlayaraq məhv edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Fərrux Rzayevdir. Aprel döyüşlərinin iştirakçısı olan Fərrux Lələtəpə yüksəkliyi istiqamətində düşmən təxribatının qarşısının alınmasında iştirak edib.

- Yarışlar zamanı atdığım mərmilərin heç biri hədəfdən yayınmadı. Nişangahdan gör-



düyüm hədəflərin hər birini real düşmən hədəfi təsəvvür edirdim. Hər kəs üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəldi, çəkdiyimiz əziyyətlər bəhrəsini verdi və biz yarışın qalibi olduq. Başda komandirimiz olmaqla heyətin hər bir üzvü yüksək əzmkarlıqla mübarizə apardı. Biz qalib ordunun əsgərləriyik. Aprel döyüşlərindəki qələbəmizi təkrarlamağa hər an hazırıq. Həmin gün düşməni necə məhv etdiksə, döyüş əmriylə Böyük Qələbəni də qazanacağıq. Keçirilən təlimlər, yarışlar da bizi bu qələbəyə ruhlandırır. Əslən Xocavənd rayonundanam. Ən böyük arzum ailəmlə doğma yurd-yuvamıza qayıtmaqdır. Bu arzunun reallaşacağı gün uzaqda deyil. Ali Baş Komandanın döyüş əmri ilə işğalda olan bütün torpaqlarımızı azad edərək mənim kimi, qəlbi torpaq həsrəti ilə alışan həmyerlilərimizin ürəyinə su səpəcəyik.

- Silahdaşlarım kimi, mən də qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmək üçün əlimdən gələni etdim, - hərbi xidmətə Zərdab rayonundan çağırılan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mehdi İbadov söhbətimizə qoşulur. - Atam Qarabağ müharibə veteranıdır. Hərbçi olmaq istəyim də elə atamla bağlıdır. Onun döyüş xatirələri, müharibədən olan söhbətləri məni hərbçi olmağa ruhlandırıb. Atamın timsalında torpaqlarımız uğrunda döyüşən, canından keçən Vətən oğullarının əmanət qoyduğu yurd-yuvamızın düşməndən azad olunması vəzifəsi bizlərin üzərinə düşür. Yaxşı başa düşürük ki, döyüş qabiliyyətimizi daim yüksək tutmalı, torpaqlarımızı hərb yolu ilə azad etməyə hər an hazır olmalıyıq. Bunun üçün dərslərdə, təlimlərdə fəal iştirak edib, öyrədilən hərbi biliklərə və bacarıqlara dərindən yiyələnirik. Belə yarışlar biliklərimizi sınağa çəkir, bacarıqlarımızı nümayiş etdirməyə zəmin yaradır. Ordumuzun yüksək döyüş qabiliyyətindən xəbərdar olan düşmən və onun havadarları bilsinlər ki, hər an torpaqlarımızı işğaldan azad etməyə hazırıq. Təlim sahəsində şərti hədəfləri dəqiq məhv etdiyimiz kimi, döyüş meydanında da düşmən qüvvələrini darmadağın edəcəyik. Yüksək döyüş bacarığı, əzmkarlıq, dözümlülük nümayiş etdirərək yarışın qalibi olduğumuz kimi, Ali Baş Komandanın rəhbərliyi altında düşmənə qarşı mərdliklə döyüşərək Böyük Qələbəni qazanacağıq!

Əminliklə qeyd etmək lazımdır ki, peşəkarlıq səviyyəsini günbəgün artıran ordumuz xalqımızın etimadını istənilən vaxt doğruldacaqdır.

**Hazırladı:**
**baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Beynəlxalq Müəllimlər Günü qeyd edildi

*Beynəlxalq Müəllimlər Günü YUNESKO-nun qərarı ilə 1966-cı ildən qeyd olunur. Həmin il təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd də qəbul edilib.*





Ölkəmizdə 1993-cü ildən qeyd edilən Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır.

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə müəllim və kursant heyətinin iştirakı ilə Beynəlxalq Müəllimlər Günü təntənəli surətdə qeyd olundu.

Tədbirdə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Hərbi liseyin rəisi general-mayor Bəkir Orucov çıxış edərək bildirdi ki, bu günün qeyd olunmasının böyük mənəvi əhəmiyyəti var. "Müəllim adı müqəddəsdir, müqəddəs olduğu qədər də şərəflidir. Müəllimlər elm öyrətdikləri şagirdlərin dərin və hərtərəfli bilik alması, dünyagörüşlərinin formalaşması üçün bütün təcrübə və bacarıqlarını sərf edirlər. Bu yolda bütün çətinliklərə qatlaşır, uğur qazanmağa çalışırlar. Müəllim əməyinin sayəsində savadlı, bilikli, geniş dünyagörüşlü, cəmiyyətimizə töhfələr verəcək gənclər formalaşır.

Müstəqilliyimizin qazanılmasında və gündən-günə möhkəmlənməsində fəal iştirak edən insanlar məhz müəllimlərimizin yetirmələridir. Çox haqlı olaraq müəllimləri yeni cəmiyyət quruculuğunun memarı adlandırırlar. Bu danılmaz bir faktdır ki, hər birimizin layiqli vətəndaş kimi formalaşmasında müəllimlərin rolu əvəzsizdir".

General-mayor qeyd etdi ki, əsası 1971-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin pedaqoji kollektivinin respublikamızda hərbi kadrların yetişməsində müstəsna rolu vardır. "Hərbi təhsil sistemində özünəməxsus pedaqoji ənənələri ilə seçilən Cəmşid Naxçıvanski adına Hərbi Lisey hazırda Silahlı Qüvvələrin müxtəlif sahələrində xidmət edən vətənpərvər, fədakar zabit ordusu yetişdirib. Onların arasında Azərbaycanın ərazi bütövlüyünün qorunmasında, eləcə də ölkədə sabitliyin bərqərar edilməsində böyük xidmətlərə malik onlarla generalın, Milli qəhrəmanın adını çəkmək olar.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev daim müəllimlərə, elmə, təhsilə böyük diqqət və önəm verir, müəllim əməyini yüksək qiymətləndirir, onların sosial müdafiəsinin gücləndirilməsi yönündə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir...".

Hərbi liseyin rəisi çıxışını ulu öndər Heydər Əliyevin "Mən dünyada müəllimdən şərəfli ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir" kəlamı ilə bitirdi.

Tədris şöbəsinin rəisi polkovnik Elman Namazov Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi rəisinin əmrini iştirakçıların nəzərinə çatdırdı.

Bir qrup müəllim kursantların vətənpərvərlik ruhunda tərbiyə olunmasında əldə etdiyi nailiyyətə, şərəfli müəllim vəzifəsini layiqincə yerinə yetirdiyinə görə rəhbərlik adından təşəkkür və fəxri fərmanlarla təltif olundu.

Sonda Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivi biri-birindən maraqlı mahnı və rəqs proqramı ilə çıxış etdi.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Tabor komandirlərinin toplanışı keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, tabor və divizion komandirləri, o cümlədən qərargah rəisləri ilə toplanışlar keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplanışda zabitlərin bilik və praktiki vərdişləri qiymətləndirilib, həmçinin müasir ümumqoşun döyüşünün aparılması üzrə nəzəri bilikləri yoxlanılıb.

Şəxsi heyət rəhbər sənədləri bilmələri üzrə test, atəş, taktiki-xüsusi və fiziki hazırlıq, eləcə də döyüş maşınlarının idarə olunması üzrə məqbullar verib.

# "Rusiya Qarabağ münaqişəsinə dair sülh sazişləri hazırlanmasında münaqişə tərəflərinə kömək etmək üçün əlindən gələni etməyə çalışır"

*"Yalnız bir realist perspektiv var - Dağlıq Qarabağ münaqişəsinin dinc yolla, danışıqlar yolu ilə nizamlanması. Azərbaycan və erməni xalqlarının təhlükəsizliyinə, regionda sabitliyə və inkişafa həyati maraq danışıqlar prosesinin əsasını və siyasi hərəkətverici qüvvəsini təşkil edir. Rusiya bunu hər vasitə ilə dəstəkləyir".*

Rusiya Xarici İşlər nazirinin müavini Qriqori Karasin bu sözləri "İzvestiya" qəzetinə müsahibəsində söyləyib.

AZƏRTAC xəbər verir ki, nazir müavinin sözlərinə görə, Rusiya ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi bu "üçlüyün" digər üzvləri - Fransa və ABŞ ilə sıx əlaqəli şəkildə işləyir. Q.Karasin deyib: "Biz həmsədrlərin ümumi fəaliyyət xətti məcrasında, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul edilmiş qərarlar çərçivəsində sülh sazişləri hazırlanmasında münaqişə tərəflərinə kömək etmək üçün öz tərəfimizdən əlimizdən gələni etməyə çalışırıq".

O vurğulayıb ki, Rusiyanın bu mövqeyi Rusiya Federasiyasının Xarici Siyasət Konsepsiyasında təsbit edilib. Bu mövqe dəyişməz qalır və bu yaxınlarda Vladimir Putinin hər iki ölkənin liderləri ilə görüşlərində bir daha təsdiq edilib.

# Hərbi xərcləri artırmağı düşünən Ermənistan bunu hansı ehtiyatları ilə edəcək?

Ermənistan Azərbaycan ilə silahlanma yarışına girməyi düşünür. Düşmən ölkə gələn il üçün hərbi xərclərini yenidən artırmaq istəyir.

Ermənistan 2019-cu ildə hərbi büdcəsini 647 milyon dollara qədər artırmaq niyyətinə düşüb. İşğalçı ölkənin müdafiə büdcəsinin kəskin artımı ilk dəfə 2018-ci ildə olub. Həmin vaxt hərbi büdcə 2017-ci ildəkinə nisbətən 17,6 faiz artaraq 518 milyon dollar təşkil edib. Gələn il daha çox artım gözlənilir və bu göstərici təxminən 647 milyon dollar olacaq. Hərbi büdcənin bu cür artırılması ümumi daxili məhsulda hiss ediləcək şəkildə əks olunub. Belə ki, bu göstərici bu il 3,8 faizə yaxın olub, gələn il isə 4,5 faizə çatacaq. Hərbi büdcənin belə sürətli artımı əlbəttə ki, Ermənistan üçün ciddi çətinliklər yaradacaq. Bu rəqəmin ümumi daxili məhsulda nisbəti 5-6 faizdən çox olması ölkə iqtisadiyyatı üçün kifayət qədər ciddi təhlükədir. Amma bu artım Ermənistanın Azərbaycan ilə ayaqlaşa biləcəyi demək deyil. Əksinə, hərbi büdcənin belə artımı ölkə iqtisadiyyatının daha böyük problemlərlə üzləşməsi deməkdir. Aydındır ki, hətta indiki artım nəzərə alınmaqla Ermənistanın hərbi büdcəsinin Azərbaycandakına çatması hələ çox var. Bu baxımdan, Ermənistanın hərbi büdcəsini artırması onun çöküşünü daha da sürətləndirəcək. Belə ki, Ermənistan həmin vəsaitə ancaq sosial sahələrə ayrılan xərcləri azaltmaqla nail ola bilər. Ancaq Ermənistanın elə böyük iqtisadi potensialı və gəlir mənbəyi yoxdur ki, paralel olaraq həm sosial, həm də hərbi sahədə eyni dərəcədə büdcə artımına qərar verə bilsin.

Buna görə də maraqlıdır, Ermənistan hərbi xərcləri hansı ehtiyatlara əsaslanaraq artırmağı düşünür?! Dağılmış vəziyyətdə olan ölkə iqtisadiyyatının əsas hissəsi xarici dövlətlərin nəzarətindədir. Amma görünən odur ki, indiki hökumət xalqdan gələn sosial tələbin bu yöndə olduğunu düşünür. Çünki Azərbaycan hərbi büdcəsini mütəmadi qaydada artırır. Azərbaycanın həm büdcəsini, həm də hərbi xərclərini artırması Ermənistanda narahatlıqla qarşılanır. Yəqin ki, yeni rəhbərlik bunu nəzərə alaraq, Ermənistan cəmiyyətini "sakitləşdirmək" üçün belə bir addım atmağa qərar verib. Amma sosial vəziyyəti ağır olan ölkələrdə hərbi xərclərin artırılması heç bir iqtisadi məntiqə əsaslanmır və bu, yaxşı nəticə vəd etmir. Ermənistan hərbi xərcləri nə qədər artırsa da, bu, Azərbaycanın hərbi xərcləri üçün nəzərdə tutulan vəsaitdən dəfələrlə azdır. Hazırda Azərbaycanda hərbi, hərbi sənaye və hüquq mühafizə orqanlarına xərclənən məbləğ ümumi büdcənin 30 faizə qədərini təşkil edir. Azərbaycan müdafiə xərclərinə, hüquq mühafizə orqanlarına, təhlükəsizlik xərclərinə təqribən 4 milyard vəsait ayırıb ki, Ermənistanın dövlət büdcəsi heç o qədər deyil.

**Ehtiram AŞIRLI,**
**analitik-icmalçı**

*Heç kim unudulmur*

# Torpağı Vətən edən şəhidlər

*Böyük Vətən müharibəsi cəbhələrində hünər tarixi yazan əfsanəvi partizanlar Əhmədiyyə Cəbrayılov, Nuru Abdullayev, Qarabağ müharibəsində erməni işğalçılarına sinəsini sipər edən Mikayıl Cəbrayılov, Orxan Hümmətov, Aqşin Abdullayev kimi oğullar xalqımızın qəhrəmanlıq xəzinəsidirlər. Torpağı Vətən edən oğullar unudulmur, xatirələri qəlblərdə yaşayır. Böyük şairimiz Məmməd Araz deyirdi ki, "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı". Mikayıl, Orxan, Aqşin timsallı igidlərimiz Vətən daşı olub, Azərbaycanımızın ərazi bütövlüyü uğrunda canlarından keçərək əbədiyyət qazandılar...*



Taleyinə şəhidlik zirvəsi yazılan mayor Aqşin Abdullayev yaşasaydı, 36 yaşı tamam olacaqdı. O, 1982-ci il oktyabrın 7-də Şəki şəhərinin qədim Kiş kəndində dünyaya göz açmışdı. İlk təhsilini Kiş kənd tam orta məktəbində alan Aqşin həkim olmaq arzusuyla yaşayırdı. O, sonda qərarını dəyişərək Vətənə xidmət yolunu, müqəddəs hərbçi peşəsini seçir. Vətəni qorumaq və düşmən işğalında olan torpaqlarımızı azad etmək amalı Aqşini zabit olmağa ruhlandırır. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Təhsil aldığı illərdə hərbin sirlərinə dərindən yiyələnir. Kursant yoldaşlarının və müəllimlərinin etibarını qazanır. 2003-cü ildə hərbi təhsilini başa vuran Aqşin Azərbaycan Ordusunun sıralarında şərəfli xidmət yolu keçir. Xidmət dövründə fəxri fərmanlarla, diplomlarla, "Qüsursuz xidmətə görə" 2-ci, 3-cü dərəcəli və yubiley medalları ilə təltif edilir. Dəfələrlə komandanlığın ən çətin tapşırıqlarını yüksək səviyyədə yerinə yetirir. Düşmənin kəşfiyyat-diversiya qruplarının törətdiyi təxribatların qarşısını rəşadətlə alır.

2017-ci il fevralın 24-dən 25-nə keçən gecə... Düşmən növbəti dəfə təxribat törədir. Mayor Aqşin Abdullayev Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatın qarşısını alarkən şəhid olur. Vətənpərvər zabit hərbi əməliyyatda göstərdiyi igidliklərə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, ölümündən sonra "Şücaətə görə" medalı ilə təltif olunur. Şəhid mayor bu medala layiq görülən ilk hərbçi kimi adını tarixin səhifələrinə yazır... Ailəli idi. 3 övladı Vətənə əmanət qalır.

Oktyabrın 1-də Aqşin Abdullayevin doğulduğu Kiş kəndində anım tədbiri keçirildi. Rayon ictimaiyyətinin müəllim və şagird kollektivinin, mərhumun zabit yoldaşlarının iştirak etdiyi anım tədbiri Kiş kəndində Qarabağ şəhidlərinin xatirəsinə ucaldılmış abidənin ziyarəti ilə başladı. Tədbir iştirakçıları şəhidlərin məzarı üzərinə əklil qoyaraq, tər qərənfillər düzdülər. Şəhidlərin ruhuna dualar oxundu və xatirələri dərin ehtiramla yad edildi. Sonra anım tədbiri Heydər Əliyev adına Kiş kənd tam orta məktəbində davam etdirildi. Azərbaycan Ordusunun şəhid mayoru Aqşin Abdullayevin məktəbdə yaradılan xatirə muzeyi ziyarət olundu və ekspozisiyada sərgilənən şəhid zabitə məxsus əşyalar, fotoşəkillər nümayiş etdirildi.

Anım tədbirində əvvəlcə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Açılış nitqi söyləyən Şəki rayon Polis şöbəsinin rəisi Əbülfət Rzayev bu tədbirin Aqşin Abdullayevin timsalında Vətən uğrunda canından keçən bütün şəhidlərimizə həsr olunduğunu dedi. "Azərbaycanımızın ərazi bütövlüyü, müstəqilliyi uğrunda, gələcək xoş günlər naminə canından keçən şəhidlərimizin xatirəsi hər birimiz üçün əzizdir. Allahdan onlara rəhmət diləyirəm. Ölkəmizdə hər bir şəhid ailəsinə dövlətimizin diqqət və qayğısı yüksək səviyyədədir. Bütün bunlar möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilir".

Ordumuzun gündən-günə artan gücündən danışan polis rəisi 2016-cı ilin aprel döyüşlərini və uğurlu Günnüt əməliyyatını bu qüdrətin bir daha təsdiqi olduğunu bildirdi. "Düşmən işğalında olan hektarlarla torpaqlarımız azad olundu. Mühüm əhəmiyyətli Lələtəpə yüksəkliyi düşməndən azad edildikdən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə yaranan təhlükə aradan qaldırıldı. Bu kəndin camaatı öz ata-baba yurduna qayıtdı. Bu bir tarixi hadisədir. Cocuq Mərcanlıya qayıdış Qarabağımıza, Şuşamıza və digər işğalda olan torpaqlarımıza qayıdışdır. Lələtəpədə, Bayraqtəpədə, Günnütdə dalğalanan üçrəngli Azərbaycan bayrağı çox tezliklə düşmən işğalında olan digər torpaqlarımızda da dalğalanacaq".

Şəki şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Həsən Həsənov Bakıda Azadlıq meydanında Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm paradın regionda ən güclü orduya malik olduğumuzu bir daha göstərdiyini bildirdi. "Möhtərəm Prezident cənab İlham Əliyevin söylədiyi kimi, Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasındadır. Bu gün ordumuz ən müasir silahlarla təchiz edilib. 20 faiz torpaqlarımız düşmən işğalındadır. Dövlətimiz torpaqlarımızın sülh yolu ilə azad olunmasının da tərəfdarıdır. Lakin ordumuzun Mübariz, Murad, Samid, Orxan, Aqşin kimi oğulları torpaqlarımızın müharibə yolu ilə alınmasına, Ali Baş Komandanın döyüş əmrinə hər an hazırdır. İllər keçəcək, qərinələr dolaşacaq, lakin torpaq uğrunda şəhid olan oğullarımızın adı heç zaman unudulmayacaq. Xalqımız igid oğullarının adını daim yaşadır, yaşadacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Tədbirdə iştirak edən polkovnik-leytenant Seymur Həbibullahov çıxış edərək şəhid mayor Aqşin Abdullayevi çox vətənpərvər, peşəkar hərbçi kimi tanıdığını, onun xatirəsinin yoldaşlarının və komandirlərinin qəlbində daim yaşayacağını vurğuladı.

Sonra Aqşin Abdullayevin orta məktəb müəllimləri olmuş Tahirə Lətifova və Xan İlyasov onunla bağlı xatirələrini bölüşdülər.

Şəhid zabitin anası Dursun Abdullayeva ailəsinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə və tədbiri təşkil edən hər kəsə minnətdarlığını bildirdi.

Anım tədbirinin sonunda şəhid Aqşin Abdullayevin xatirəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş olundu.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Respublika Veteranlar Təşkilatında "Qələbə" saytının müzakirəsi keçirilmişdir

*"Qələbə" saytının təqdimat mərasimi keçirilib. Bu sayt Azərbaycanda Böyük Vətən müharibəsində itkin düşmüş və həlak olmuş şəxslərin axtarışı məqsədilə yaxın günlərdə istifadəyə veriləcəkdir. Saytın baş redaktoru və təsisçisi kinorejissor Cəmil Quliyevdir.*

Təqdimat mərasimində Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov, sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış etmiş, bu layihənin perspektivlərindən danışmışlar. "Qələbə" saytı Böyük Vətən müharibəsinin azərbaycanlı iştirakçılarının axtarılması, onların adlarının əbədiləşdirilməsi missiyasını yerinə yetirəcəkdir.

Cəmil Quliyev tariximizin böyük bir qismini özündə əks etdirəcək saytın tərtibatı, orada yer alacaq bölmələr haqqında məlumat vermişdir. Tədbirdə veteran və ziyalıların təklifləri dinlənilmişdir.

Sayt gələcəkdə azərbaycanlıların iştirak etdiyi İkinci Dünya müharibəsindən başqa digər müharibələrdə də itkin düşmüş və həlak olmuş şəxslər haqqında məlumatlarla zənginləşdiriləcəkdir.

Sonda saytın tərtibatı və informasiya bazasının qurulması haqqında yekun fikrə gəlinmiş, saytın yaxın günlərdə istifadəyə verilməsi üçün Respublika Veteranlar Təşkilatının bu layihəyə yaxından köməklik göstərəcəyi və əməkdaşlıq edəcəyi bildirilmişdir.

# Hərbi Dəniz Qüvvələri komanda-qərargah təlimi keçirir





*Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, Hərbi Dəniz Qüvvələri komanda-qərargah təlimi keçirir.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi dənizçilərin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlim zamanı qərargahlarda Xəzər dənizinin ölkəmizə məxsus sektorunda enerji infrastrukturlarının mühafizəsi üzrə gəmi taktiki qrupların qarşılıqlı fəaliyyətlərinin planlaşdırılması həyata keçirilir və gəmilərin tam döyüşə hazırolma dərəcəsinə gətirilməsi üzrə qərarlar qəbul edilir.

# Silah və hərbi texnika qış mövsümündə istismar rejiminə keçirilir

*Azərbaycan Ordusunun bütün hərbi hissə və bölmələrində silah, döyüş və xüsusi texnikanın istismarının qış mövsümünə keçirilməsi prosesi aparılır.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, silah və texnikanın qış dövründə fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bütün hərbi hissələr mərkəzləşdirilmiş qaydada yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilib.

Hərbi hissələrdə fəaliyyət göstərən texniki xidmət məntəqələrində döyüş və xüsusi texnikaların yanacaq-sürtkü materialları dəyişdirilib, onlara planlı şəkildə qulluq göstərilib.

Qış istismar rejiminə keçid soyuq iqlim şəraitində, dağlıq-düzənlik ərazidə, gecə və gündüz hərbi hissələrin döyüş qabiliyyətinin artırılması, eləcə də döyüşə hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə icra olunub.

* * *

Kimya Qoşunlarının hərbi hissəsində silah və texnikanın payız-qış mövsümi istismarı şəraitinə keçidi təşkil olunub.

Müxtəlif təlim nöqtələrində keçirilən məşğələnin əsas məqsədi xüsusi texnikalara mövsümi qulluq göstərilməsi zamanı hərbi qulluqçular tərəfindən görüləcək işlərin həcmini və ardıcıllığını praktiki şəkildə nümayiş etdirmək, eləcə də bu sahədə şəxsi heyətin bilik və bacarıqlarını artırmaq olub.

Hərbi hissənin sıra meydanı və parkında keçirilən məşğələdə texniki heyət məşğələ rəhbəri tərəfindən qarşıya qoyulan tapşırıqları yerinə yetirib.

# “Azərbaycan əsgəri tarixi torpaqlarımızı azad etməyə qadirdir”

*Azərbaycan Ordusu dövlətin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təminatçısı olduğundan onun şəxsi heyətinin vətənpərvər ruhda tərbiyə olunması, əsgərlərdə milli mənlik şüurunun inkişaf etdirilməsi, hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji keyfiyyətlərinin təkmilləşdirilməsi günün tələblərinə uyğun qurulur. Ona görə də Azərbaycan Ordusunda şəxsi heyətin təlim və tədrisinə xüsusi önəm verilir və onların təbii imkanlarının üzə çıxması üçün hər cür şərait yaradılır. Azərbaycanın müharibə vəziyyətində olması nəzərə alınaraq şəxsi heyətin milli-mənəvi özünüdərki, milli mənlik şüurunun formalaşması diqqət mərkəzində saxlanılır. Şəxsi heyətin hərbi vətənpərvərlik tərbiyəsi, xalqımızın əsrlər boyu yaratdığı və qoruduğu milli-mənəvi dəyərləri mənimsəməsi, ona yaxından bələd olması, əsl vətəndaş, əsl döyüşçü kimi yetişməsi baxımından ictimai-siyası hazırlıq dərslərinin əhəmiyyəti böyükdür.*

Digər hərbi hissələrdə olduğu kimi, "N" hərbi hissəsində də şəxsi heyətin vətənpərvər ruhda tərbiyə olunmasına, torpaqlarımızın bir qisminin işğal altında olduğu bir şəraitdə bu yöndə təbliğatın gücləndirilməsinə, ictimai-siyasi dərslərin keçirilməsinə xüsusi əhəmiyyət verilir.

Hərbi hissədə iştirak etdiyimiz ictimai-siyasi dərslərdən birində söhbət zamanı kapitan Nicat Əsədov bildirdi ki, ordu rəhbərliyinin qarşısında duran başlıca vəzifələrdən biri də şəxsi heyətə vətənpərvərlik hisslərinin aşılanması və onun qorunub saxlanmasından ibarətdir. - Ordunun qarşısında duran taleyüklü məsələni nəzərə alanda, sözügedən məsələyə son dərəcə məsuliyyətlə yanaşmaq reallığı ortaya çıxır. Şəxsi heyətimizin vətənpərvərlik ruhunun yüksək olması ordu rəhbərliyinin qarşısında duran prioritet məsələlərdəndir. Hər bir hərbi qulluqçu yaxşı başa düşür ki, onun vətənpərvərlik, torpağa, dövlətə sədaqət hissi yüksək olmalıdır. Bu baxımdan ictimai-siyasi hazırlıq dərslərinin şəxsi heyətimizin formalaşmasında, nizam-intizamının yüksəldilməsində rolu böyükdür. Həmin dərslər şəxsi heyətimizə dövlətimizin daxili və xarici siyasətini düzgün dərk etməyə, siyasi prosesləri, ölkə və ordu rəhbərliyinin fəaliyyətini də izləməyə yardımçı olur.



"Həftədə iki dəfə tədris edilən ictimai-siyasi hazırlıq dərsləri biz əsgərlərin hərbi vətənpərvərlik, dövlətçilik, milli-mənəvi dəyərlərimizə hörmət ruhunda xidmət etməsində mühüm rol oynayır", - deyə əsgər Orxan Babayev söhbətə başladı.

- Vətənpərvərlik hisslərinin arzuolunan səviyyədə olması bütün çətinliklərin öhdəsindən məharətlə gəlməkdə yardımçıdır. Aprel döyüşləri də sübut etdi ki, qələbəni müasir silah və texnikaya dərindən bələd olan, ən əsası vətənpərvərlik hissləri ilə tərbiyə olunan Azərbaycan əsgəri qazandı.

"Aprel döyüşləri ordumuzun inkişafının bariz nümunəsidir", - deyə kiçik çavuş Turan Zeynallı söhbətə qoşuldu. - Bu qələbə Azərbaycan Ordusunun gücünü, qüdrətini düşmənə nümayiş etdirdi. Düşmən anladı ki, Azərbaycanın ən müasir silah-sursatla təmin olunmuş çox güclü ordusu və peşəkar hərbçiləri var. Bu ordu istənilən an Ermənistan ordusunu darmadağın edər və işğal altında olan ərazilərimizi düşməndən təmizləyər.

Əsgər Tofiq Paşanov isə bildirdi ki, Azərbaycan Ordusunun gücü Silahlı Qüvvələrin 100 illiyi münasibətilə keçirilən hərbi paradda da sübut olundu. "Keçirilən hərbi parad Azərbaycan Ordusunun gücünün və müdafiə qabiliyyətinin gücləndirilməsinin nümayişidir. Bu, ordumuzun, əsgərimizin gücünü, texnikamızın qüdrətini göstərən bir məsələdir. Digər tərəfdən, düşmənə mesajdır ki, Azərbaycan əsgəri tarixi torpaqlarımızı azad etməyə qadirdir.

Əsgər Ədil Mehrəliyev əminliklə qeyd etdi ki, həmin vaxta az qalıb. Ona görə ki, bu gün fərqli zamandır, düşmənin qarşısında güclü Azərbaycan Ordusu dayanır. Aprel qələbəsini, Günnüt zəfərini qazanan Azərbaycan əsgəri tarixi Qələbə ilə xalqına sevinc bəxş etmək arzusundadır. Azərbaycan əsgəri bu dəfə döyüşə başlasa, üçrəngli bayrağımızı Cıdır düzündə dalğalandırmayana qədər dayanmayacaq.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Azərbaycan XİN A.Hakopyanın Rusiyadan olan bir qrup qadın ilə Dağlıq Qarabağa səfərinə münasibət bildirib

*Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti Anna Hakopyanın Rusiyadan olan bir qrup qadın ilə ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfəri barədə açıqlama yayıb.*

AZƏRTAC-ın məlumatına görə, açıqlamada deyilir: "Qadınlar sülh naminə" təşəbbüsü barədə artıq səsləndirilmiş mövqeyimizə əlavə olaraq təkrar edirik ki, sülh istəyənlər müharibəni davam etdirməməli, insan itkisinin qarşısını almaq istəyənlər digər dövlətin ərazilərini hərbi işğal altında saxlamamalı və nəhayət, qadınları və anaları sülhə dəvət edənlər şəxsən öz övladlarını Azərbaycanın beynəlxalq tanınmış ərazilərinə hərbi xidmətə göndərməməlidirlər.

Azərbaycan Respublikasının qanunlarını ciddi pozaraq ölkəmizin işğal edilmiş ərazilərinə qanunsuz səfər edən əcnəbi vətəndaşlara gəldikdə isə, hazırda onlarla bağlı məlumat araşdırılır və bu şəxslər müəyyənləşdirildikdən sonra onların adlarının ölkəmizə girişi arzu olunmayan şəxslər siyahısına əlavə edilməsi ilə bağlı müvafiq qərar qəbul olunacaq".

# Əsgər dostluğu uzunömürlüdür

Dostluq - fədakarlıq deməkdir. Bu arada aprel döyüşləri zamanı dostları uğrunda canını fəda verən, onların həyatı üçün öz həyatından keçən şəhid mayor Elnur Əliyevin adını çəkmək yerinə düşər. Şəhid zabitimiz Lələtəpə yüksəkliyi istiqamətində gedən döyüşlərdə öz canını dostları yolunda qurban verdi. Özünü erməninin atdığı qumbaranın üstünə ataraq şəhid oldu. Əlbəttə, Elnur Əliyev kimi insanların ömür yolu bugünkü gənclərə əsl örnəkdir.



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində əsgər dostluğundan söz düşəndə leytenant Kənan Məmmədov Daşkəsən rayonundan ordu sıralarına çağırılan əsgər Orxan Bayramovla Qəbələ rayonundan hərbi xidmətə çağırılan əsgər Vasif Paşayevin dostluqlarından danışdı. Qeyd etdi ki, hərbi hissədə Orxanla Vasifin dostluğu hər kəsə nümunədir. "Kənardan onların münasibətlərini seyr etdikdə insana xoş hisslər aşılayır. Bir-birinə hər zaman dayaq olurlar. Çox vaxt döyüş növbəsinə də birgə çıxırlar. Hər zaman deyirlər ki, onların dostluğu mülki həyatda da davam edəcək".

Əsgər Orxan Bayramov qeyd etdi ki,dostluq qırılmaz zəncirə bənzəyir. Dörd söz - daş, od, su, torpaq sözlərinin birləşməsindən əmələ gəldiyindən, dost, daş kimi möhkəm, od kimi daimi, su kimi saf, torpaq kimi güclü və əbədi olmalıdır. Səmimi, möhkəm dostluğu heç nə ilə sarsıtmaq mümkün deyil. Əlbəttə, xoş günün dostluğu vaxtsız açan çiçəyə bənzəyir - onu şaxta, qar vurub soldurur. Çətinliklərdə bərkiyən dostluq isə uzunömürlü olur. Bizim səngərdə qazandığımız dostluq buna görə də ömürlük olacaq. Burada çoxlu dostlarım var. Onlarla aramızda qarşılıqlı səmimiyyət və hörmət yaranır. Belə dostlarımızdan biri də Vasif Paşayevdir. Asudə vaxtlarımızda bir yerə yığışır, domino, şahmat, dama və digər oyunlar oynayırıq. Ən şirin xatirələrim dostlarımla bağlıdır. Özlüyümdə qəti şəkildə müəyyənləşdirmişəm: həyatımda dostlarımı heç vaxt heç nə ilə və heç kimlə əvəz etmək olmaz".

- İnsanlar arasında hər xoş münasibəti dostluq adlandırmaq olmaz. Həqiqi dostluq bərkdə-boşda, həyatın enişli-yoxuşlu yollarında sınanılır. Əsl dostluq insanlar arasında münasibətlərin uca zirvəsidir. Əgər sən dostluğu yüksək qiymətləndirirsənsə, gərək dostun yolunda hər bir çətinliyə dözməyi bacarasan, sirlərini ondan gizlətməyəsən, heç vaxt yalan danışmayasan. Dostu olmaq böyük xoşbəxtlikdir. İnsan dostu ilə həyatda daha inamlı olur, üzləşdiyi problemləri asanlıqla dəf edir. Necə deyərlər: "Ağac kökləri ilə, insan dostları ilə var olar". Dostlarımdan biri əsgər Orxan Bayramovdur. Onunla tanışlığımız səngərdən başlayıb. Necə deyərlər, əsgər dostu ömür dostudur. Əlbəttə ki, bizim dostluğumuz əbədi olacaq. Mən həyatımda belə dost qazandığım üçün sevincliyəm. Sevincliyəm ki, onun kimi qürurverici dostlarım var. Dostluq gözəl və sözlərlə ifadə edilə bilməyəcək qədər ülvi hissdir. Bir əsgər kimi yalnız bir məqsədimiz var - doğma torpaqlarımızı işğaldan azad edib, yurdlarından didərgin düşmüş həmyerlilərimizi dədə-baba obalarına qovuşdurmaq. Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə tez bir zamanda buna nail olacağıq. Düşmənlərimizə aprel döyüşlərində olduğu kimi bir daha ordumuzun gücünü göstərəcəyik. Arzu edirəm ki, məhz əsgər dostlarımla Şuşada, Laçında, Kəlbəcərdə.... oturub xatirələrimizi bölüşək, - deyə əsgər Vasif Paşayev bildirdi.

Səngərdə belə dostlarla tanış olduğum üçün sevincliyəm. İnanıram ki, mərd əsgərlərimizin dostluğu da əbədi olacaq.

**Baş leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

# "Asudə vaxtlarımızda yarışlar da təşkil olunur"

*Hərbi hissələrdə şəxsi heyətin döyüş hazırlığının yüksək olması ilə yanaşı, onların mənəvi-psixoloji vəziyyətinə də xüsusi önəm verilir. Ona görə də dərs prosesləri bitdikdən sonra gün ərzində əsgərlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb.*



"N" hərbi hissəsində əsgərlərin asudə vaxtlarını necə keçirdikləri ilə maraqlanırıq . Kimisi dama oynayır, kimisi qəzet oxuyur, kimisi də televiziya verilişlərini izləyirdi. Baş gizir Möhləddin Əmənov və çavuş Elşad Orucov arasında keçirilən dama yarışını maraqla izləyən gizir Sirac Həsənovla həmsöhbət oluruq. Öyrənirəm ki, hərbi qulluqçular öz aralarında yarış təşkil ediblər. "Təkcə əsgərlərimiz deyil, zabit və gizirlərimiz də asudə vaxtlarını burada keçirirlər", - deyə gizir Sirac Həsənov söhbətə başladı. - Asudə vaxtımızda buraya gəlirik. Əsgərlərimizlə birgə televiziya proqramlarını izləyir, radio dinləyir, söhbət edirik. Bu gün də öz aramızda dama yarışı təşkil etdik. Əsas məqsədimiz vaxtımızı səmərəli keçirmək və yaddaşımızda xoş xatirələr yaratmaqdır.

Təkcə oyun və televiziya verilişləri ilə kifayətlənmirik, - deyə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə cavabdeh zabit leytenant Emil Həsənov söhbətimizə qoşulur. - Həftə sonları, bayram günlərində əsgərlər arasında idman və bilik yarışları da təşkil olunur. Şəxsi heyət bu tədbirlərdə həvəslə iştirak edir. Gözlərindəki sevinci, üzlərindəki təbəssümü gördükcə onların döyüş ruhunun yüksək olduğunu hiss edirik. Azərbaycan əsgəri istənilən an Ali Baş Komandanın əmrinə hazırdır.



Əsgər Mirhüseyn Ədalətli yaradılan şəraitdən razılığını bildirdi. "Yuxarı komandanlığa minnətdarıq ki, bizlər üçün bu cür şərait yaradıb. Asudə vaxtlarımız səmərəli keçir. Kitab və jurnallar oxuyur, oyunlar oynayır, eyni zamanda xəbərləri, vətənpərvərlik mövzusunda filmləri izləmək imkanı qazanırıq. İstər ölkəmizdə, istərsə də beynəlxalq aləmdə baş verən hadisələrdən xəbər tuturuq. Hərbi verilişlərə maraqla baxırıq. Bu cür proqramlar döyüş ruhumuzu, vətənpərvərlik hisslərimizi daha da artırır. Tarixi kinoları, xalqımıza qarşı törədilmiş soyqırımlardan bəhs edən filmləri izlədikcə, düşmənə olan nifrətimiz artır. Torpaqlarımıza qovuşacağımız günün həsrəti ilə yaşayırıq. Bu həsrətdi bizi aprel zəfərindən Günnüt zəfərinə aparan. Bu həsrətdi bizi ayaqda saxlayan. Bir gün bu həsrət döyüşlərdə düşməni məğlub etməyə, onu bağışlamamağa vəsilə olacaq."

Əsgər Pərvin Cəfərov əsgər yoldaşının sözlərinə qoşularaq bildirdi ki, hər birimiz o günü səbirsizliklə gözləyirik. "Asudə vaxtlarda təşkil olunan yarışları bitirdikdən sonra öz aramızda söhbət edirik. Hamımızın fikri üst-üstə düşür. Gün o gün olsun ki, belə yarışları Qarabağda keçirək."

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə 88 nəfər terrorçuluqda şübhəli bilinərək saxlanılıb



Türkiyənin Daxili İşlər Nazirliyi ölkənin 7 vilayətində PKK-KCK terror təşkilatlarına qarşı antiterror əməliyyatı keçirib.

İzmir, Van, Adana, Ərzurum, Mardin, Qars və Muşda 88 nəfər terrorçuluqda şübhəli bilinərək saxlanılıb. Məlumata görə, onlar 2014-cü ilin 6-7 oktyabr hadisələrinin ildönümü bəhanəsi ilə ölkədə ictimai sabitliyə və dinc asayişə qarşı təxribatlar hazırlayırmışlar. Saxlanılan şəxslərdən silah, narkotik maddə, qanunla qadağan olunan digər vəsaitlər götürülüb.

## ABŞ-ın hərbi qırıcı təyyarələri Ukrayna ərazisinə enib



ABŞ Hava Qüvvələrinin hərbi qırıcı təyyarələri Ukrayna ərazisinə enib.

Təyyarələr Ukraynada oktyabrın 8-19-da keçiriləcək "Açıq səma-2018" genişmiqyaslı hərbi təlimlərində iştirak edəcək.

Hərbi təlimlərdə Rumıniya, Polşa, Belçika, Danimarka, Böyük Britaniya, Niderland, Yunanıstan və Estoniyanın hərbi hava qüvvələri iştirak edəcək. Ümumilikdə, hərbi təlimlərə 40-dan çox təyyarə, uçuş aparatları, onlarla zenit-raket kompleksi və hərbi-texniki vasitələr cəlb olunub. Təkcə Ukrayna tərəfinin 20-yə yaxın müxtəlif tipli təyyarə, helikopter və dronları hərbi təlimlərdə iştirak edəcək.

## Suriya müxalifəti İdlibdən bütün ağır silahları çıxarıb



Suriyanın silahlı müxalifəti İdlibdəki demilitarizasiya zonasından ağır texnikanın çıxarmasını başa çatdırıb.

Ağır texnika Suriya qoşunlarının və silahlı müxalifətin bütün təmas zonalarından çıxarılıb. Ötən gecə müxalifət silahların, o cümlədən minaatan, haubitsa və raket qurğularının çıxarılmasını sürətləndirib. Eyni zamanda, Türkiyə Silahlı Qüvvələri Baş qərargahının İdlibdəki demilitarizasiya zonasına zirehli texnika və digər silahlar göndərib. Soçi sazişinə uyğun olaraq, Türkiyə tərəfi burada patrul fəaliyyəti ilə məşğul olacaq.

## Rusiya və Hindistan S-400-lərin çatdırılması barədə müqavilə imzalayıb



Rusiya Prezidenti Vladimir Putinin oktyabrın 5-də Dehliyə səfəri çərçivəsində S-400 "Triumf" zenit-raket sistemlərinin çatdırılması barədə müqavilə imzalanıb.

Bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. Kremlin məlumatına əsasən, burada söhbət 5 zenit-raket sistemi polkundan gedir. Sövdələşmənin həcmi 5 milyard dollardan çoxdur.

Qeyd edək ki, S-400 zenit-raket sistemlərinin Hindistana çatdırılması barədə hökumətlərarası saziş 2016-cı ilin oktyabrında əldə olunsa da, müqavilə bu günədək imzalanmamışdı. Hindistan müqaviləyə ABŞ-ın maliyyə sanksiyaları barədə təhdidlərinə baxmayaraq imza atıb. Belə ki, ötən həftə Vaşinqton Rusiyadan analoji sistemlər alan Çinə sanksiyalar tətbiq edib.

Uzaq və orta mənzilli S-400 "Triumf" zenit-raket kompleksləri bir neçə metrdən onlarla kilometr hündürlükdə saniyədə 4,8 kilometrə qədər sürətlə hərəkət edən strateji və taktiki aviasiyanı, ballistik raketləri, səsdən sürətli hədəfləri, həmçinin istənilən digər hava hədəflərini məhv etmək üçün nəzərdə tutulub. Bu sistemlər 400 kilometr məsafəyədək aerodinamik hədəfləri və 60 kilometr məsafəyə qədər ballistik raketləri vura bilir.

**AZƏRTAC-ın
materialları əsasında**

# Əsgərlərimizin məişət şəraiti yüksək səviyyədədir



Ali Baş Komandan İlham Əliyevin göstərişinə əsasən, orduda diqqət yetirilən əsas məsələlərdən biri də hərbi qulluqçuların sosial-məişət qayğılarının həll edilməsidir. Bu məqsədlə yeni tikilən hərbi hissələrdə müasir əsgər yataqxanaları, təbliğat materialları ilə tam təmin olunmuş ideoloji, xidməti, tədris və istirahət otaqları, döyüş texnikası üçün saxlanclar, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana, qazanxana kompleksi və digər obyektlər inşa edilir. Müasir standartlara cavab verən yataqxanalarda əsgərlərin istirahəti üçün hərtərəfli şərait yaradılıb. İdeoloji otaqların da əsgərlərimizin Vətənimizin hərb tarixinin şanlı səhifələri barədə məlumatlarının artmasında müstəsna rolu vardır.

"N" hərbi hissəsində əsgərlərimiz üçün yaradılmış məişət şəraiti ilə tanış olduq. Yeni tikilən hərbi hissə müasir qurğu və avadanlıqlarla təchiz edilib. Bir daha əmin oldum ki, burada əsgərlərimizin nümunəvi xidmət etmələri üçün mümkün olan bütün şərait yaradılıb. Hərbi hissənin ərazisi ilə tanışlıqdan sonra Vətən müdafiəçiləri ilə həmsöhbət olduq.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ravid İbrahimov bildirdi ki, uşaq yaşlarından atasının Qarabağ uğrunda gedən döyüşlərdə ermənilərin insanlığa sığmayan hərəkətlərindən bəhs edən söhbətlərini dinləyib. "Əmim Mirzə İbrahimov Vətənimizin dar günündə erməni işğalçılarına qarşı döyüşlərin iştirakçısı olub. O, Qubadlı rayonu uğrunda ağır döyüşlərdə şəhadətə yüksəlib. Atam həmişə onun qəhrəmanlığı, cəsarəti və rəşadətindən mənə söhbət edərdi. Qarabağ veteranı olan əmim Bəhruz İbrahimov da tez-tez xalqımızın başına açılan vəhşiliklərdən danışardı. Mən də böyüyüb əsgər olacağım, əmimin qisasını alacağım günü səbirsizliklə gözləyirdim. Artıq bu gün güclü və qüdrətli Azərbaycan Ordusunun əsgəri olmağımla fəxr edirəm".

Yaradılan sosial-məişət şəraitindən danışan Ravid bildirdi ki, yuxarı komandanlıq tərəfindən göstərilən diqqət və qayğı gəncləri daha da ürəklə xidmət etməyə ruhlandırır: "Şəxsi heyətin sağlamlığı, yataq dəstlərinin dəyişdirilməsi, paltarlarının yuyulması hər bir komandirin diqqət mərkəzindədir".

"Yuxarı komandanlığa bizlər üçün yaradılan şəraitə görə minnətdarlığımı bildirirəm. Biz də verilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirərək onların etimadını doğruldacağıq. Azərbaycan əsgəri düşməndən qat-qat güclüdür, üstündür. Ermənilər bilməlidirlər ki, Ali Baş Komandanımızın döyüş əmri ilə aprel döyüşlərində başlanan Böyük Qələbəyə gedən yolu müvəffəqiyyətlə yekunlaşdıracağıq. Hər birimiz düşməni torpaqlarımızdan qovub çıxaracağımız, ərazilərimizi işğaldan azad edəcəyimiz günü səbirsizliklə gözləyirik", - bu sözləri Nəsimi rayonundan hərbi xidmətə çağırılan əsgər Rafiq Məlikov dedi.



Xəzər Universitetinin məzunu olan əsgər Ramil Hüseynov Nərimanov rayonundan hərbi xidmətə çağırılıb. O bildirdi ki, atası, əmiləri Qarabağ uğrunda gedən döyüşlərin iştirakçıları olublar. "Vətən müqəddəsdir. Atam və əmilərimin keçdiyi döyüş yolu həmişə mənim üçün nümunə olub. Vətənin müdafiəçilərinin sıralarında olmağımla qürur duyuram. Komandirlərimizin öyrətdiklərini dərindən mənimsəməyə çalışıram. Artıq xidmətimi başa vururam. Buna baxmayaraq, hər an torpaqlarımız uğrunda gedən döyüşlərdə iştirak etməyə hazıram".

Əsgər Tərlan Mirzəyev də xidmətə gəldiyi gündən şanlı ordumuzun layiqli əsgəri olmağa çalışdığını bildirdi. "Xidmətə gəldiyimiz gündən komandir heyətinin diqqət və qayğısı ilə əhatə olunmuşuq. Hərbi hissədə xidmətimiz üçün hər cür şərait nəzərdə tutulub. Gördüyünüz kimi, əsgər yataqxanamız, yeməkxanamız, məişət, ideoloji otağımız... müasir standartlara cavab verir. Bizim üzərimizə yalnız məşğələlərdə diqqətli, nizam-intizamlı olmaq, verilən tapşırıqları vaxtlı-vaxtında və dəqiq yerinə yetirmək düşür. Biz də üzərimizə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib xalqımızın etimadını doğruldacağıq".



Gördüklərimiz sübut edir ki, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, hərbi hissələrin maddi-texniki təminatının gücləndirilməsi ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# İdman

## "Tank" ləqəbli kikboksçumuz növbəti döyüşünü qələbə ilə başa vurub



Azərbaycan Kikboksinq Federasiyasının üzvü, bir sıra beynəlxalq yarışların qalibi, dünya çempionu Xəyal Əhmədov Almaniyanın Bohum şəhərində keçirilmiş nüfuzlu beynəlxalq turnirdə üçrəngli bayrağımızı növbəti dəfə başı üzərinə qaldırıb.

MMA - qarışıq döyüş növləri və K1 versiyaları üzrə keçirilən beynəlxalq turnirdə Azərbaycanı təmsil edən "Tank" ləqəbli kikboksçumuz almaniyalı idmançı Lukas Boçenski ilə qarşılaşıb.

X.Əhmədov inamlı qələbə qazanaraq Azərbaycanın idman uğurlarına daha birini əlavə edib.

## Azərbaycan gimnastları dünya kubokunun qalibi olublar



Portuqaliyanın Lole şəhərində batut gimnastikası və tamblinq üzrə ilin sonuncu dünya kuboku yarışları keçirilib.

Turnirin sonuncu günündə il ərzində təşkil olunmuş bütün dünya kuboklarının yekun xalları əsasında fərqlənmiş gimnastlara xüsusi kuboklar təqdim edilib. Azərbaycan gimnastı, tamblinq üzrə 2018-ci ilin Avropa çempionu Mixail Malkin bütün rəqiblərini üstələyərək kuboka layiq görülüb. Batut gimnastikası üzrə sinxron proqramda qadın cütlüyümüz Veronika Zemlyanaya və Svetlana Makştaryova cari ildə bütün dünya kuboklarında topladıqları xalların hesabına əsasən birincilik əldə ediblər.

## Şahmatçılarımız üç lövhədə medal qazanıb



Batumidə təşkil edilən Ümumdünya Şahmat Olimpiadasına yekun vurulub.

Kişi və qadın şahmatçılardan ibarət Azərbaycan yığma komandaları mükafatçılar sırasında yer almayıb. Üç şahmatçımız öz lövhəsində göstərdiyi nəticələrə görə medallara layiq görülüb.

Kişi şahmatçılardan ibarət milli komandada ikinci lövhədə çıxış edən Teymur Rəcəbov və dördüncü lövhədə mübarizə aparan Rauf Məmmədov bürünc medal qazanıblar. Qadınlardan ibarət millidə isə üçüncü lövhədə yarışan Xanım Balacayeva qızıl medala layiq görülüb.

## Veteran güləşçimiz Musa Mirzəyev dünya çempionu olub

Makedoniyanın paytaxtı Skopyedə sərbəst, Rusiyanın Perm şəhərində isə yunan-Roma güləşi üzrə veteranlar arasında dünya çempionatı keçirilib.

Sərbəst güləşçilərin yarışında "B" qrupunda Mayis İbadov (70 kq) gümüş medal qazanıb.

Yunan-Roma güləşi üzrə mübarizədə isə Musa Mirzəyev (130 kq) "A" qrupunda dünya çempionu olub, Rövşən İsmayılxanlı (130 kq) "D" qrupunda ikinci yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan ordusunda özbaşınalıq və qanunsuzluq səbəbindən baş verən cinayətlər artmaqdadır. Övladlarının ölüm səbəbindən şübhələnən əsgər valideynlərinin şikayətləri düşmən ordusunda daha bir qalmaqala səbəb olub.

Dağlıq Qarabağdan Ermənistana gətirilən əsgər meyitlərinin təkrar tibbi ekspertizadan keçirilməsi və onların nəticələri valideynləri qəzəbləndirib.

Məlumatda deyilir ki, təkrar ekspertiza zamanı ölən əsgərlərin bəzilərinin qaraciyəri, dalağı, böyrəkləri və digər orqanlarının yerində olmadığı aşkar edilib. Məhz bu səbəbdən valideynlər onların qəsdən çıxarıldığını iddia edir və müəmmalı əsgər ölümlərinin qanunsuz orqan ticarəti ilə bağlı olduğundan şübhələnirlər. Onlar israrla hər bir əsgər meyitinin dəfndən əvvəl təkrar müstəqil ekspertlər tərəfindən ekspertizasını tələb edirlər.

Ermənistan ordusu rəhbərliyinin ciddi səyləri nəticəsində hadisə ictimailəşməsə də, qalmaqal daha da böyüməsin deyə təcili araşdırılmalar başlayıb.

Orqan qalmaqalında ən çox adı hallanan isə Xoren Azaryan adlı hərbi həkimdir. Araşdırma davam edir.

Ermənistan ordusunda daha bir hərbi qulluqçu nizamnamədənkənar münasibətlərin qurbanı olub.

İşğal altında olan ərazilərimizdə yerləşdirilən və "Kaytsak" adlandırılan hərbi hissədə xidmət edən Tiqran Varosyan adlı hərbi qulluqçu vəhşicəsinə döyülüb.

Burnu sındırıldığına görə Xankəndi hospitalında təcili əməliyyat olunan T.Varosyanın valideynləri komandanlığın təkidli "xahişi" ilə hüquq mühafizə orqanlarına şikayət etməməyə razı olublar.

* * *

**Hazırladı:**
**İsa ELDAROĞLU**

Baş gizir Salmanov Şahlar İbad oğluna, gizir Qocayev Tələt Tofiq oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 807
Nüsxə 3525